# RÜSTƏMOV FÜZULİ SALAH OĞLU



Füzuli Rüstəmov 25 dekabr 1965-ci ildə Tərtər rayonunun Hüsənli kəndində dünyaya göz açmışdır. 1978-ci ildə Xocalıda orta məktəbə getmiş, səkkizillik təhsilini orada başa vurmuşdur. 1983-cü ildə Sovet ordusu sıralarına hərbi xidmətə çağırılıb. O, əsgərlikdə olarkən dəfələrlə xidmət etdiyi hərbi hissənin komandanlığı tərəfindən fəxri fərman, döş nişanları ilə təltif edilir, evlərinə təşəkkür məktubları göndərilir. Hərbi xidməti tamamladıqdan sonra 1985-ci ildə o, əvvəlcə Xocalı üzümçülük sovxozunda, 1990-cı ildə isə toxuculuq fabrikində çalışmışdır. Qarabağ hadisələri başlayanda vətənə xidmət borcunu yerinə yetirmək üçün cəbhəyə yollanmışdır. 1990-cı ildə ermənilərin Xankəndinə gedişinin qarşısını almaq üçün əməliyyat planı hazırlayan 4 nəfərin içərisində Füzuli də vardı. Azərbaycanın Milli Qəhrəmanı A.Quliyevin yaralı vəziyyətdə döyüş meydanından çıxarılması da onun hünəri sayəsində mümkün olmuşdur. F.Rüstəmov Xocalı faciəsi zamanı əhalinin təhlükəsizliyinin təmin edilməsində xüsusi şücaət göstərmişdir. Həmin vaxt o, üç dəfə Xocalıya girərək qadın, uşaq və yaralıları təhlükəsiz zonaya çıxarmışdır. Ölümün pəncəsindən neçə-neçə insanın həyatını xilas etmiş və həmin vaxt aldığı ağır yaradan Ağdam mərkəzi xəstəxanasında dünyasını dəyişmişdir. Tərtər rayonunun Hüsənli kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı Fərmanı ilə Rüstəmov Füzuli Salah oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.